Xalq qəzeti 2020.- 10 iyun.- S.4.

# Azərbaycan: Avropada 7-ci, MDB-də lider

## Ölkəmizdə korrupsiyaya qarşı barışmaz mübarizə aparılır

***Dövlətimizin başçısı İlham Əliyev prezidentlik fəaliyyəti dövründə korrupsiya və rüşvətxorluğun aradan qaldırılmasını daim diqqət mərkəzində saxlayıb. Bu istiqamətdə ardıcıl qərarlar verib, müvafiq proqramlar imzalayıb. Atılan bu addımlar isə sosial-iqtisadi islahatların gerçəkləşdirilməsinə mənfi təsir göstərən, ayrı-ayrı sahələrin davamlı inkişafına əngəl törədən, ən başlıcası isə ədalətli cəmiyyət quruculuğunu ləngidən halların qarşısına sədd çəkməklə ölkənin gələcək dayanıqlı inkişafının şərtləndirilməsi məqsədi daşıyıb.***

Azərbaycanda koronavirus pandemiyasına qarşı mübarizə aparıldığı, dövlət strukturları tərəfindən əhalinin sağlamlığı ilə bağlı mühüm tədbirlər gerçəkləşdirildiyi indiki vaxtda isə vətəndaşların və dövlətin qanunla qorunan mənafelərinə ciddi zərər vuran, hüquqazidd əməllərə yol verən vəzifəli şəxslər daha sərt şəkildə cəzalandırılır, aşkarlanan korrupsiya və rüşvətxorluq kimi mənfi meyillər aradan qaldırılır.

Belə bir narahatlıq doğuran bəla ilə mübarizənin miqyasının getdikcə genişləndirilməsi, əslində, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan hərtərəfli islahatların ən əsas elementlərindən biridir. Bununla bağlı ölkə səviyyəsində həm inzibati, həm də institusional üsullardan geniş istifadə olunması da məhz qeyd edilən fikrin bariz ifadəsidir.

Ölkəmizdə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri aparıcı beynəlxalq təşkilatlar – BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının antikorrupsiya monitorinq orqanı – Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), MONEYVAL Komitəsi və digər nüfuzlu beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilir. İyunun 3-də Strasburqda Avropa Şurasının antikorrupsiya monitorinq orqanı – Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) 2019-cu ildə fəaliyyətini əks etdirən hesabatında Azərbaycana verilən yüksək qiymət də bunun parlaq ifadəsidir.

Xatırladaq ki, adıçəkilən hesabat parlament üzvləri, hakimlər və prokurorların fəaliyyətində korrupsiyanın qarşısının alınması məsələlərindən bəhs edir. Sənəddə, həmçinin Azərbaycan tərəfindən tövsiyələrin 61,9 faiz icra olunduğu, respublikamızın bu göstərici üzrə Avropa Şurasına üzv 50 ölkə arasında 7-ci, MDB ölkələri arasında isə 1-ci yerdə qərarlaşdığı vurğulanır.

Belə bir müsbət nəticə yuxarıda xatırlatdığımız kimi, Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində səmərəli tədbirlərin gerçəkləşdirilməsi, bu yöndə güclü siyasi iradənin nümayiş etdirilməsi ilə əlaqədardır.

Yeri gəlmişkən, Azərbaycanda korrupsiya və rüşvətxorluğa qarşı sərt mübarizə aparılması, eyni zamanda, dövlət idarəçiliyində şəffaflığın gücləndirilməsi, elektron xidmətlərin inkişafına xüsusi diqqət yetirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Onu da qeyd edək ki, respublikada korrupsiya və rüşvətxorluğa qarşı mübarizə sahəsində əldə edilən müsbət dinamika beynəlxalq antikorrupsiya reytinqlərində də öz əksini tapıb. Belə ki, ölkəmiz Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) və OECD-nin Antikorrupsiya Şəbəkəsinin 3 qiymətləndirmə raundunu uğurla keçib. Bu isə Azərbaycanda həyata keçirilən tədbirlərin Avropa standartlarına uyğunluğunun indikatoru deməkdir.




Burada bir məqamı da etiraf etmək istərdik. Belə ki, son vaxtlaradək ölkədə nəzərə çarpan korrupsiya və rüşvətxorluq halları əhalinin sosial şəraitinin yaxşılaşması istiqamətində görülən işlərin səmərəliliyinə mənfi təsir göstərir, bununla ölkədə sabitlik və əmin-amanlığa real təhlükə yaranır, eyni zamanda, beynəlxalq aləmdə mövqelərimiz barədə mənfi imic formalaşırdı. Artıq əminliklə deyə bilərik ki, bu bəlaya qarşı ciddi mübarizə aparılması postpandemiya dövründə sosial-iqtisadi inkişafı daha da sürətləndirəcək, yerli və beynəlxalq səviyyəli layihələrin müsbət nəticələrlə yekunlaşmasına əlverişli şərait yaradacaq. Regional inkişaf məsələlərində narahatlıq doğuran əngəllərin aradan qaldırılmasına müsbət təsir göstərəcək. Başqa sözlə, bölgələrin davamlı tərəqqisinə maneə yaradan bəzi məmurların ifşası yerlərdə yeni innovativ və daha səmərəli inkişaf modellərinin tətbiqinə yol açacaq. Bütün bunlar isə daha təminatlı, davamlı və uğurlu gələcəyin qurulmasına xidmət edəcək. Eyni zamanda, respublikada xalq-iqtidar birliyini daha da möhkəmləndirəcək, cəmiyyətin öz Prezidentinə inam və etimadını gücləndirəcək.

Xatırladaq ki, Prezident İlham Əliyev hələ bu il mayın 13-də Azər Qocayevi Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən, bu barədə ətraflı danışıb. Dövlətimizin başçısı belə xoşagəlməz hallara qarşı bundan sonra da ciddi mübarizə aparılmasının zəruriliyini vurğulayıb. Ölkə rəhbəri daha sonra deyib: "Bu mübarizə bu gün öz nəticələrini verir. Mən bunu bir neçə dəfə demişəm ki, xoşagəlməz hallara, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə amansız olacaq. Bugünkü mənzərə bunu göstərir. Artıq beş icra hakimiyyəti başçısı həbs olunub və bütün o videomateriallar, ondan sonra istintaq materialları göz qabağındadır. Yəni, kasıb insanın çörəyini kəsmək, ona çatacaq vəsaiti mənimsəmək ən böyük cinayət sayıla bilər. Pandemiya dövründə aztəminatlı təbəqəyə nəzərdə tutulmuş yardımı vəhşicəsinə mənimsəmək vicdansızlıq və cinayətdir. Tutulan o beş icra hakimiyyəti başçısının beşi də bu çirkin əməllərlə məşğul olub...".

Prezident İlham Əliyev mayın 1-də Baş prokuror Kamran Əliyevi videoformatda qəbulu zamanı da korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə istiqamətində prokurorluq orqanları tərəfindən daha fəal iş aparılmasının zəruriliyini diqqətə çatdırıb. Həmçinin bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərini bildirərək, dövlət məmurlarını xəbərdar etdiyini vurğulayıb: "Əgər hansısa dövlət məmuru öz işində düzəlişlər edə bilmirsə, yaxud da ki, istəmirsə, qoy özü könüllü şəkildə dövlət işindən istefa versin. Amma əfsuslar ki, mənim sözlərim bəziləri üçün dərs olmadı və bunun nəticəsində indi Dövlət Təhlükəsizliyi Xidməti bir neçə əməliyyat keçirərək rüşvətxorları, yüksək vəzifə sahiblərini ifşa etdi və onlar artıq cinayət məsuliyyətinə cəlb edilmişlər. Ağstafa, Biləsuvar, Yevlax, Neftçala rayonlarının icra başçıları həbs edilmişdir, ictimaiyyətə bu məsələ ilə bağlı ətraflı məlumat verilmişdir və bundan sonra da ətraflı məlumat veriləcəkdir".

Göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə reallaşdırılan hüquqi, institusional və kadr islahatlarının əsas xətlərindən birini təşkil edən korrupsiya ilə mübarizənin daha da sərtləşdirilməsi və vətəndaş-məmur münasibətlərinin daha sağlam prinsiplər üzərində qurulması dövlət qulluqçularının şəffaf fəaliyyətinin təmin edilməsi və vətəndaş məmnunluğunun artırılması məqsədi daşıyır. Lakin dövlətimizin başçısının yuxarıda xatırladılan tədbirlərdə vurğuladığı kimi, təəssüf ki, geniş əhali qruplarını narazı salmağa yönələn mənfi halların hələ də təkrarlanması faktları da müşahidə olunur.

Belə mənfi əməllərə son qoyulması tələbi ilə ən yüksək səviyyədə edilmiş açıq çağırışlara və xəbərdarlıqlara məhəl qoymayan, ifşa olunmuş həmkarlarının aqibətindən nəticə çıxarmayan vəzifəli şəxslər barəsində qanunvericiliyə uyğun cinayət-hüquqi tədbirlərin görülməsi artıq zərurətə çevrilib. Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Yevlax şəhərinin və Ağstafa, Biləsuvar, İmişli və Neftçala rayonlarının icra hakimiyyəti başçıları, habelə bir sıra şəhər-qəsəbə icra nümayəndələrinin cinayət məsuliyyətinə cəlb olunaraq həbs edilməsi buna sübutdur.

Yeri gəlmişkən, dövlətimizin başçısı Baş prokuror Kamran Əliyevi videoformatda qəbulu zamanı tətbiq edilən məsuliyyət tədbirlərinin təkcə yerli icra hakimiyyəti orqanları ilə kifayətlənməyəcəyini, cəmiyyətin əsaslarını sarsıdan çirkin əməllərə yol verən bəzi mərkəzi icra hakimiyyəti orqanlarını da əhatə edəcəyini açıq bildirmişdi. Məhz may ayının 8-də Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Mədəniyyət Nazirliyində həyata keçirilən xüsusi əməliyyat bunun bariz ifadəsi idi. Azərbaycan xalqının yaşı minilliklərlə ölçülən zəngin mədəni irsinin qorunmasının etibar edildiyi bir nazirlikdə bu cür mənfi hallara yol verilməsi cəmiyyətdə haqlı olaraq hiddətlə qarşılandı, kəskin tərzdə qınanıldı. Ermənistanın hələ də davam edən təcavüzkarlığı nəticəsində onsuz da vandalizmə məruz qalmış mədəniyyətimizin keşiyində durmalı olan məmurların xəyanət yolunu seçməsi həm hüquqi, həm də mənəvi baxımdan bağışlanılmazdır və onlara qarşı qanunun ən sərt formada tətbiqi mütləqdir. Hər bir məmur dövlətimizin başçısının xəbərdarlığından nəticə çıxarmalı və öz fəaliyyətlərində qanunsuz hərəkətlərə yol verməməlidirlər. Əks halda, indiyədək olduğu kimi, bundan sonra da belələri qanunun gücü ilə qarşılaşacaqlar.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*